# Sumqayıtın yetirməsi

## Vətəndən uzaqlarda da Vətənlədir

**Rəhman ORXAN,**
**Respublikanın Əməkdar jurnalisti**
**tel.: (050) 250-07-26**
**e-mail: rahman_orxan@mail.ru**

(əvvəli ötən sayımızda)

**"Elxan, mənim adım Arturdur, erməniyəm, Bakı ermənisi. Burda ehtiyatlı ol!"**

Bir dəfə təsadüfən Bakıdan olan bir nəfərlə rastlaşır. Doğma, şirin Azərbaycan dilində xeyli söhbət edib, Bakının ötən illərini xatırlayırlar. Tanışı birdən qayıdır ki:

- Bilirsən, Elxan, gəl sənə düzünü deyim. Mən Bakıdanam, Bakını da, bakılıları da çox sevirəm, orda doğulub böyümüşəm, ancaq azərbaycanlı deyiləm.

Elxan azərbaycanlı hesab etdiyi təzə tanışına təəccüblə baxanda o, əvvəlki səmimiliyini saxlayaraq deyir:

- Narahat olma, ancaq biləsən ki mən erməniyəm, adım da Arturdur. Düzdür, o alçaqlardan, xəyanətkarlardan - Ermənistan, Suriya, Livan ermənilərindən deyiləm, Bakı erməsiniyəm.

Sonra sözünə davam edərək, deyir:

- Sənə indi bir sirr açacağam. Burdakı xristian kilsəsi var ha, mən də əvvəllər ora gedirdim. Ancaq sonralar gördüm ki, ora hollandlarla birgə ibadətə gələn Yerevan erməniləri özlərini yalandan Azərbaycandan qovulmuş qaçqınlar kimi təqdim edərək, ah-vayla yerli sakinləri öz tərəflərinə çəkməyə, Azərbaycan əleyhinə təbliğat aparmağa, onlarda siz azərbaycanlılara qarşı nifrət, kin-küdurət yaratmağa çalışırlar. Mən bir-neçə dəfə onları ifşa etməyə çalışaraq, onların Azərbaycandan yox, Ermənistandan qaçqın düşdüklərini bildirsəm də, hər dəfə hay-küylə üstümə düşərək, məni yalan danışmaqda günahlandırırdılar. Son dəfə isə üzərimə hücum çəkib, təhqir edərək, döymək istəyərkən əllərindən güclə qaçıb qurtarmışam. Bunu sənə ona görə deyirəm ki, burda ermənilər az deyil və onların əsas məqsədləri Azərbaycana qarşı çirkin təbliğat aparmaq, yerli əhalidə sizin simanızda çox pis düşmən obrazı yaratmaqdır. Qoy bizim bakılıların hamısı bilsin ki, o fitnəkar təxribatçıların bizi ev-eşiyimizdən didərgin salmaqları, sakit həyatımızdan məhrum etməkləri azmış kimi burda da alçaq əməllərindən qalmırlar. Sən çalış burda ehtiyatlı, diqqətli ol! O alçaqlardan nə desən, gözləmək olar...



**Elxan hollandlar və ermənilərlə birgə niyə xristian kilsəsinə üz tutmuşdu?**

***Arturla söhbətdən sonra Elxan Mirhəşimli yaşadığı Leyevarden şəhərindəki Azərbaycan diasporunun rəhbəri kimi ordakı xristian kilsəsinin idarə heyətinə rəsmi müraciət edərək, onlarla görüşmək üçün razılıq alır və növbəti həftədə protestant hollandların və digərlərinin də toplaşdığı kilsə yığıncağında iştirak edir. Və orda çıxış edərək bildirir ki, ermənilər din etibarilə qriqoryan olduqları halda Azərbaycanın, o cümlədən Qarabağın ərazilərində olan qədim Alban kilsələrini öz adlarına çıxmağa çalışır, işğal altındakı ərazilərdə həmin kilsələrin tarixi yazılarını dəyişdirərək, saxtakarlıqla erməniləşdirməyə cəhd eirlər. Və qriqoryan olduqları halda Niderlandın protestant kilsələrinə sığınmağa, özlərinin dini-tarixi saxtakarlıqlarını ört-basdır etməyə çalışırlar. Yığıncaqda iştirak edən ermənilər öz bəd əməllərinə haqq qazandırmağa cəhd etsələr də, azərbaycanlı diaspor rəhbəri Elxan Mirhəşimlinin tarixi faktları tutarlı şəkildə, dəqiqliyi ilə çatdırması kilsənin idarə heyətinə həqiqətin nə yerdə olduğunu anlada bilmişdi.***

Elxanın bir-neçə dəfə holland kilsəsinə getdiyini görən və kilsənin qəzetlərindən birinə onun verdiyi müsahibəni oxuyan həmyerlilərimizdən bəziləri onu saxlayaraq, kinayə ilə soruşmuşdular: "Xeyir ola, tez-tez kilsəyə gedirsən? Nə olub, dinindən-imanından dönmüsən?". Məsələnin nə yerdə olduğunu izah etdikdən sonra onlar sakitləşmişdilər.

Bir dəfə isə kilsənin idarə heyətinin yığıncağında Elxan müəllim erməni "qaçqınların" daha bir saxtakarlığını ifşa etmişdi:

- Hörmətli kilsə rəhbərliyi, biz hamımız, dinimizdən, dilimizdən asılı olmayaraq, Allahın bəndələriyik. Allah adamları yalan danışmamalıdır. İndi qoy burdakı erməni xristianlar Azərbaycandan olan qaçqınlardırsa, mənim Bakı ilə, onun tərkibindəki rayonlar və kəndlərlə bağlı suallarıma cavab versinlər. Ancaq bacarmayacaqlar, çünki onların heç biri Bakı deyil, Yerevan erməniləridir, Bakını tanımırlar və bura Azərbaycandan yox, Ermənistandan qaçıb gəliblər.






Bundan sonra erməni "bataqlığına" sanki daş atıldı. Heç kəs cavab üçün irəli durmadı, sadəcə qışqırışmağa başladılar.

- Qoy onlar bir də onu desinlər görək, Azərbaycan Ermənistanın hansı şəhərini, hansı kəndini işğal edib? - deyə Elxan sözünə davam etdi. - Elə bir şey heç vaxt olmayıb. Ancaq kiçik bir Ermənistan Rusiyadan və Fransadan olan havadarlarının sayəsində iki əsr əvvəl Azərbaycanın Göyçə, Zəngəzur mahallarını, 1990-cı illərdə isə bizim qədim diyarımız olan bütün Dağlıq Qarabağı və hətta ətraf 7 rayonumuzu işğal etmiş, Suriya və Livandan olan erməni quldurlarının köməyi ilə bizm azərbaycanlılar yaşayan Qaradağlı, Xocalı, Malıbəyli və digər kəndlərimizdə, şəhərlərimizdə 1000-dən çox dinc əhalini - qocaları, qadınları, uşaqları amansızlıqla qətlə yetirmiş, alman faşistlərindən də betər işgəncələr vermişlər.

Bu danılmaz faktlar qarşısında duruş gətirə bilməyən, çaşbaş qalan ermənilər qışqırışmışdılar ki, "sən türksən, azərisən, müsəlmansan, kilsədə nə işin var?". Və başqa bir vaxt hədəqorxu gələrək demişdilər ki, "bu şəhərdə çoxlu su kanalları var, bir gün onlardan biri səni aparıb dənizə ata bilər".

***Ancaq onların hədəsu zirək idmançı - bacarıqlı boksçu və güləşçi olan, ən azı 3-4 ermənini "aşırmağa" gücü çata bilən sumqayıtlı Elxanı qətiyyən qorxutmamışdı. Hələ bir-neçə dəfə də, o cümlədən 2016-cı ildəki aprel və builki Tovuz döyüşlərindən sonra da o, Niderlandın iki xristian-demokrat partiyalarının rəhbərləri və üzvləri ilə görüşərək, Ermənistanın işğalçı siyasətini ifşa etmişdi.***

**İdeoloji mübarizə davam edir**

"Siyasi baxışınız?" sualına Elxan Mirhəşimlinin heç zaman dəyişməyən qısa və qətiyyətli cavabı var: "Milliyyətçiyəm! Xalqımızı, dövlətimizi, müstəqilliyimizi, dilimizi, dinimizi hər şeydən üstün tutur, çox sevirəm!"

Başqa cür ola da bilməz! Axı, Vətən, yurd sevgisi hələ uşaqlıqdan onun qanına, canına doğma Qubadlının odu-havası, Həkərinin, Bərgüşadın sularının ana laylası kimi həzin nəğməsi ilə hopub. Torpağı-daşı düşmən əlində olan kəs mübariz, döyüşkən ruhlu, vətənpərvər olmaya bilərmi? Təsadüfi deyil ki, Elxan müəllim Niderlanda qədəm basdıqdan cəmi bir il sonra diaspor hərəkatına qoşulmuş, çox keçmədən onun liderlərindən biri olmuşdur. Artıq neçə ildir ki Leyevarden şəhərindəki Azərbaycan diasporuna rəhbərlik edir.

***Elxan müəllimin 2014-cü ildə oğlu Mirələkbərlə birgə öz vəsaiti hesabına 'Niderland-Azərbaycan Evi'hi yaratması da onun vətənpərvərliyindən, xalqımıza, dövlətimizə məhəbbətindən, sədaqətindən irəli gəlir. Həmin 'Evi'in şöləsinə elə ilk vaxtlardan onlarla həmvətənimiz cəmləşmişdi. Və çox keçmədən yad ölkədə Azərbaycan diasporunun fəaliyyəti, vətənpərvərlik hərəkatı 'Niderland-Azərbaycan Evi'hin ətrafına daha çox adamları, o cümlədən Niderlandın yüksək dairələrinin nümayəndələrini də cəlb etməyə başlamışdı.***

(davamı gələn sayımızda)